

**Onun vaxtsız vəfatından iyirmi bir il keçir. Bu il mayın 18-i Şamil Vəzirovun 80 illik yubileyi olub. Söhbət istedadlı alim, böyük şəxsiyyət və nəcib insan Şamil Süleyman oğlu Vəzirovdan gedir.**

**Şamil Vəzirov Azərbaycan SSR Neft Sənayesi naziri, Sosialist Əməyi Qəhrəmanı Süleyman Azad oğlu Vəzirovun ailəsində dünyaya göz açmışdır. Anası Validə xanım Vəzirova neft-kimya sahəsində tanınmış mütəxəssislərdən biri idi. Şamil Vəzirov tanınmış, maarifçi dramaturq Nəcəf bəy Vəzirov, 1894-1907-ci illərdə Qafqazın Şeyxülislamı olmuş Əbu Salam Axundzadə, hərbi komandanlar Mehmandarov qardaşları, Şah Qacar nəslinin Şahzadələri kimi ziyalılar nəslinin nümayəndəsidir.**

# Kimya sahəsində tanınmış mütəxəssis

Şamil Vəzirov Bakı şəhərində anadan olmuş, lakin atasının təyinatı ilə bağlı ilk təhsilini Moskva şəhərində 59 saylı məktəbdə, paralel olaraq Qnesinlər adına orta xüsusi musiqi məktəbində almışdır. Bakıya qayıdandan sonra təhsilini 134 saylı orta məktəbdə davam etdirmiş, ali təhsilini 1959-1964-cü illərdə hazırkı Azərbaycan Neft və Sənaye Universitetində almış və kimya-texnologiya fakültəsini mühəndis-texnoloq kimi bitirərək "Üzvi və neft kimya sintezinin texnologiyası" ixtisasına yiyələnmişdir. Tələbəlik illərində Bakı Neft Emalı Zavodunda operator köməkçisi kimi ilk elmi-sənaye təcrübəsini keçmiş, 1964-cü ildən Azərbaycan SSR Elmlər Akademiyası Neft-Kimya Prosesləri İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlamışdır.

O, 1968-ci ildə "Viniletil və diviniltoluolların heterogen-katalitik sintezi, oliqomerləşməsi və bəzi çevrilmələri" mövzusunda namizədlik dissertasiyasını, 1987-ci ildə "1-1-diariletilen sırası monomerlərin və onların əsasında reaksiyayaqabil oliqomerlərin sintezi" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Şamil Vəzirov, Yusif Məmmədəliyev, Rüstəm İsmayılov, Vahab Əliyev, Sahib Əliyev kimi Azərbaycan kimya elminin inkişafında böyük xidmətləri olmuş tanınmış akademiklərin məktəbindən bəhrələnmiş, 1986-1990-cı illərdə "Heterogen oliqomerlər", 1990-cı ildən ömrünün sonuna kimi "Funksional oliqomerlər" laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. Ş.Vəzirov neft-kimyası və yüksək molekullu birləşmələr kimyası sahəsində tanınmış mütəxəssis idi.

Onun rəhbərliyi ilə bir sıra polifunksional monomerlərin sintezi, bu monomerlər əsasında tərkibi, quruluşu, kompleks fiziki-kimyəvi xassələri tənzimlənə bilən reaksiyayaqabil yeni tərkib oliqoefirlərin, epoksisooliqomerlərin sintezinin elmi əsasları işlənib hazırlanmış və bu birləşmələrin kompleks istismar xassələri tədqiq olunaraq müxtəlif təyinatlı kompozisiya materiallarının, laklar və boyaların alınmasında bağlayıcı komponent kimi perspektiv tətbiq sahələri müəyyən edilmişdir.

Şamil Vəzirov 1975-1976 və 1985-1986-cı illərdə ABŞ-da Massaçusets Texnoloji Universitetinin Polimer tədqiqatları və mühəndisliyi bölməsində elmi təcrübə keçmiş, polimer kimyası sahəsində tanınmış alim Otto Vogl ilə birlikdə tərkibində hallogen fraqmenti saxlayan birgə polimerlərin sintezi, morfoloji xassələrinin öyrənilməsi sahəsində tədqiqatlar aparmışdır.

ABŞ, Hindistan, Şimali Koreya, Türkiyə, bəzi MDB ölkələrində keçirilən beynəlxalq, ümumittifaq simpozium və konfranslarda iştirak edən alim maraqlı, perspektiv istiqamətlərlə bağlı elmi məruzələrlə çıxış edərək Azərbaycan kimya elmini dünya miqyasında təmsil etmişdir.

Şamil Vəzirov 1984-cü ildə Koreya Xalq Demokratik Respublikasında Birləşmiş Millətlər Təşkilatının eksperti kimi, SSRİ və Amerika dostluq Cəmiyyətinin Bakı şöbəsinin üzvü kimi fəaliyyət göstərmişdir. 1985-ci ildə Azərbaycan SSR MK-nın nəzdində Marksizm-Leninizm Universitetini fərqlənmə diplomu ilə bitirmişdir.

O, uzun illər AMEA NKPİ-nin partiya təşkilatının sədr müavini, institutun nəzdində fəaliyyət göstərən namizədlik və doktorluq elmi dərəcələrinin verilməsi üzrə ixtisaslaşdırılmış Şuranın elmi katibi vəzifələrində çalışmışdır. Yüksəkixtisaslı elmi kadrların yetişdirilməsində fəal iştirak etmiş, onlara hər zaman xüsusi qayğı ilə yanaşaraq köməkliyini əsirgəməmişdir.

Elmi maraq dairəsi çox geniş olan alim 1999-cu ildə professor adını almış, kimya elminin bir sıra perspektiv istiqamətlərində apardığı tədqiqatların nəticələrinə, əmək fəaliyyətində fərqləndiyinə görə akademik Y.H.Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

Bir monoqrafiyanın müəllifi olan Şamil Vəzirovun apardığı elmi-tədqiqat işlərinin nəticələri 100-dən artıq elmi əsərdə, 14 müəlliflik şəhadətnaməsində, 4 patentdə öz əksini tapmışdır. Onun rəhbərliyi altında 5 kimya üzrə fəlsəfə doktoru və bir kimya elmləri doktoru yetişmişdir.

AMEA Y.H.Məmmədəliyev adına NKPİ-nin kollektivi, onu yaxından tanıyan həmkarları Şamil Vəzirovun xatirəsini sakit təbiətli, səbirli, dərin zəkaya malik, işinə dəqiqliklə yanaşan, əxlaq qaydalarına böyük dəyər verən, ədalətsizliyə etirazını bildirən bir insan kimi daim dərin hörmətlə yad edirlər.

**V.ABBASOV,**
**AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik.**